## AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİ

## İXTİSASLAR VƏ İXTİSASLAŞMALAR

## BAKALAVR

## RƏSSAMLIQ FAKÜLTƏSİ

| | **Azərbaycan Respublikası Nazirlər Kabinetinin 12.01.2009-cu il tarixli, 8 nömrəli qərarı ilə təsdiq olunmuş ixtisas siyahıları üzrə ixtisaslar:** | İxtisasın kodu |
|---|---|---|
| 1 | **Qrafika** | 050319 |
| | Qrafika ixtisasının məqsəd və vəzifələrinə təsviri sənətin əsas qanunları, qrafik əsəri yaradan zaman müxtəlif texniki və texnoloji momentlər, dəzgah, kitab, plakat və başqa işlərdə kompüter qrafikası, animasiya və cizgi rəsmlərində texniki və yaradıcılıq prosesləri, rəsmdə naturadan işləmək, rəsm, rəngkarlıq və kompozisiyada tədrisin metodikasının analizi, müstəvidə təsvir olunan kompozisiya qanunlarının əsas quruluşu daxildir. | |
| 2 | **Rəngkarlıq** | 050318 |
| | Rəngkarlıq ixtisasının məqsəd və vəzifələrinə texniki vasitələr, rəngkarlıq materiallarının texnologiyası, layihələndirmə metodları, rəngkarlığa aid bütün anlayışlar, bu sahədə nəzəri və praktiki biliklər, kompozisiya üsulları, natürmortun qurulması, müstəvidə təsvir olunan kompozisiya qanunlarının əsas quruluşları, ton və rəngin qavrama nəzəriyyəsi, boyalar haqqında ümumi anlayış daxildir. | |
| 3 | **Dekorativ sənət** | 050312 |
| | Dekorativ sənətin məqsəd və vəzifələrinə, digər ixtisas sahələri ilə əlaqəsinə, perspektivlərinə fəaliyyət sahəsinə aid olan fənlərin əsas problemlərinə, onların konkret tətbiq sahələrinə, mədəniyyət və incəsənət sahəsinə qanunvericilik biliklərinə, müasir dövrdə dekorativ sənət sahəsinə aid edilən qərar, sərəncam və digər rəhbər sənədlərlə tanışlığa, respublikanın və xarici ölkələrin dekorativ sənət sahəsində qabaqcıl təcrübəsinə, predmet və rəsmin qavramaq xüsusiyyətləri, perspektiv və işıq-kölgənin qanunauyğunluqları, rəsm üzərində işin metodik ardıcıllığını bilmək kimi realist rəngkarlığın xüsusiyyətləri daxildir. | |
| 4 | **Dizayn** | 050321 |
| | Dizayn ixtisasının məqsəd və vəzifələrinə üçölçülü fəza elementləri və onların qanunauyğun təsviri, mövcud olan riyazi üsullardan istifadə və nəticələrin işlənməsi üçün riyazi metodların tətbiqi, təbiət elmlərindən sadə sistem və proseslərdə riyazi modellərdən istifadə, təsvirin ifadə edilmə və müasir həllərini aparmaq, müasir dizaynda tendensiyaların formalaşma tarixi, dizayn nəzəriyyəsinin əsas məsələləri, dizayn fəaliyyətinin əsas metodları və quruluşunun açılışı daxildir. | |
| 5 | **Sənətşünaslıq** | 050302 |
| | Fundamental sənətşünaslıq ixtisasının məqsəd və vəzifələrinə dərin biliklərə əsaslanan müasir sənətşünaslığın elmi–nəzəri nailiyyətlərindən istifadə edərək muzeylərdə, kitabxanalarda, arxivlərdə işləmək qabiliyyəti, tarixi-müqayisəli təhlil, müasir kompleks yanaşma, tipoloji yanaşma, sosioloji-fəlsəfi, kulturoloji araşdırma üsullarından istifadə etmək qabiliyyətini, sənətşünaslıq problemlərinin təhlilində bədii tənqidin üsullarından istifadə etmək bacarığı, klassik sənətşünaslıq məsələlərinin tarixi və nəzəri aspektləri üzrə müstəqil təhlil aparma qabiliyyəti daxildir. | |